***“Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, makroiqtisadi sabitliyin təmin olunmasında, sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində, nəticədə, əhalinin rifahının daha da yaxşılaşdırılmasında müstəsna rol oynayır.***

# UNEC-in Zaqatala filialı ölkədə ixtisaslı kadrların hazırlanmasında fəal iştirak edir

Dövlət proqramında regionlarda təhsil sahəsində bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. İqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun təhsil sistemi Azərbaycanda kadr hazırlığının, təhsili idarəetmə sisteminin və təhsil infrastrukturunun qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulmasına imkan verərək, ölkədə biliklərə əsaslanan iqtisadiyyatın davamlı inkişafını təmin etməyi hədəfləyir.

Ölkənin şimal-qərb bölgəsində UNEC-in (Azərbaycan Dövlət İqtisad Universiteti) Zaqatala filialının yaradılması bu konsepsiyanın mühüm tərkib hissəsidir. UNEC-in Zaqatala filialı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin regionların sosial-iqtisadi inkişafı üçün yüksək ixtisaslı kadrlara tələbatı təmin etmək, bölgələrdə yaşayan gənclərin seçdikləri ixtisaslar üzrə keyfiyyətli ali təhsilə çıxış imkanlarını genişləndirmək, eləcə də ali təhsil müəssisələrinin mövcud maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədilə 2016-cı il 29 aprel tarixli sərəncamı ilə yaradılmışdır. Filial 15 sentyabr 2016-cı ildə “Bilik günü”ndə UNEC-in rektoru, professor Ədalət Muradovun və rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadənin xeyir-duası ilə fəaliyyətə başlamış, I kursa qəbul olunanlara tələbə biletləri təqdim edilmişdir.

Açılışında ölkə başçısı cənab İlham Əliyevin iştirak etdiyi filial yüksək səviyyəli maddi-texniki baza ilə təmin olunmuşdur. Belə ki, auditoriyalar proyektorlar, imtahanların elektron formada təşkil edilməsi üçün 30 nəfərlik fərdi kompüter və 82 nəfərlik xüsusi quruluşda kompüter stolları ilə təmin edilmişdir. Burada 80 nəfərlik tələbə yeməkxanası, 40 nəfərlik müəllimlər, əlavə olaraq qonaqlar üçün 12 nəfərlik yeməkxana hazırlanmış və avadanlıqlarla təchiz edilmişdir. Bundan əlavə, VI mərtəbədə Heydər Əliyev Mərkəzi və kitabxana tələbələrin istifadəsinə verilmişdir.

2019–2020-ci tədris ili üçün filialın tanınması və təbliğatı işi ilə yanaşı, daha effektiv olaraq Təhsil Nazirliyi və universitet rəhbərliyi keçid balının və təhsil haqqının azaldılması ilə bağlı mühüm tədbirlər həyata keçirmişdir. Belə ki, əyani təhsil forması üzrə təhsil haqqı 1200 manat, qiyabi təhsil forması üzrə 1000 manat təyin edilmişdir. Eləcə də, semestr ərzində yüksək nəticələr əldə edən tələbələr bir sıra imtiyazlar əldə edirlər. Belə ki, semestr ərzində ən yüksək göstəriciyə malik olan tələbə 1 semestrlik UNEC-də pulsuz təhsil almaq şansı qazanır.

Zaqatala filialının tələbələri həm də UNEC-də təşkil edilmiş 4 il ərzində UDİD (ikili diplom) proqramı vasitəsilə 2 ixtisas üzrə 2 diplom əldə etmək şansı qazanırlar. Proqrama qoşulan tələbələr iki ixtisasa yiyələnməklə, gələcəkdə əmək bazarında layiqli yer tutmaq və onun tələblərinə çevik uyğunlaşmaq imkanı əldə edirlər.

Dərs və imtahan prosesləri və ümumiyyətlə, filialın fəaliyyəti daim UNEC rektorluğunun diqqətində olmuşdur. Universitetin rektoru, professor Ə. Muradov, rəhbərliyin digər təmsilçiləri dəfələrlə filialda olmuş, dəyərli məsləhətlər və tövsiyələr vermiş, filialın fəaliyyətinin universitetin tələbləri səviyyəsinə çatdırılmasına əməli yardım etmişlər.

Bunun nəticəsində rektor tərəfindən UNEC-in Zaqatala filialının inkişafı, tədrisin keyfiyyətinin artırılması və təşkilinin təkmilləşdirilməsi məqsədilə tədbirlər planı təsdiq edilmişdir.

Filiala tələbə qəbulu Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən aparılır. İlk tədris ilində əyani təhsil forması üzrə 113, cari təhsil ilində isə respublikanın müxtəlif bölgələrini təmsil edən 314 nəfər filiala qəbul olunmuşdur. 2016-cı tədris ilində 4 ixtisas üzrə fəaliyyətə başlayan UNEC-in Zaqatala filialı bu gün əyani və qiyabi təhsil forması üzrə 8 ixtisasla fəaliyyətini uğurla davam etdirir.




Təhsil Nazirliyinin 2019 – 2020-ci tədris ilində subbakalavr kimi ali təhsil müəssisəsinə əyani təhsil forması imtahansız qəbul olmuş şəxslərin təhsillərinin öz ixtisasları və ya digər ixtisaslar üzrə qiyabi təhsildə davam etdirmələri haqqında 20 fevral 2020-ci il tarixli məktubuna müvafiq olaraq, filialda İnformasiya texnologiyaları və Menecment ixtisasları üzrə qiyabi təhsil qrupları açılmışdır. Müraciət edən tələbələr qiyabi təhsil forması üzrə müvafiq ixtisaslara köçürülmüşdür. Eləcə də, 2 tələbə xarici ölkələrin təhsil müəssisələrindən köçürülmüşdür.

2019-cu ildən etibarən UNEC-in Zaqatala filialında “Elektron universitet” modelinin tətbiqinə başlanmışdır və filial yeni infrastrukturla təmin edilmişdir. “Elektron universitet” modelinin tətbiqi ilə əlaqədar UNEC-in Zaqatala filialının professor-müəllim heyəti üçün distant təlimlər keçirilmişdir. Eksterndə təşkil olunan təlimin məqsədi tədris materiallarının keyfiyyətinin yüksəldilməsi, müasir standartlara uyğun hazırlanması və filialın professor-müəllim heyətinin “Elektron universitet” modelindən istifadə qaydaları barədə biliklərinin daha da artırılması olmuşdur.

Filialın strukturuna əsasən, ümumi fənlər kafedrasının adı dəyişdirilərək iqtisadiyyat və idarəetmə kafedrası adlandırılmışdır. 2016-ci ildə 12 nəfər müəllim heyəti ilə fəaliyyətə başlayan filialda hal-hazırda 37 nəfər professor-müəllim heyəti çalışır.

Tədris prosesinin təkmilləşdirilməsi və keyfiyyətinin artırılması, elmi-pedaqoji potensialın yüksəldilməsi, maddi - texniki bazanın təkmilləşdirilməsi, ictimai-ideoloji-sosial innovasiyaların və beynəlxalq əlaqələrin inkişaf etdirilməsi ilə əlaqədar tədbirlər planı təsdiq edilmişdir. Belə ki, tədbirlər planının birinci bəndinə əsasən, EDUMAN –“Elektron universitet” modelinin tətbiqinə başlanmışdır.

Filialda bütün müəllim və tələbələr üçün şəxsi kabinetlər açılmış, dərs cədvəlləri, tədris planları, fənn üzrə qruplar, tədris materialları, sərbəst işlərin qəbulu, apelyasiya müraciətləri, imtahan cədvəli və buraxılışlar elektronlaşdırılmışdır. Xatırladaq ki, tədrisin keyfiyyətinin qiymətləndirilməsi və idarə edilməsi üçün EDUMAN sistemi geniş imkanlar yaradır.



Bundan başqa, Nazirlər Kabinetinin 2 mart 2020-ci il tarixli “Təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin dayandırılması barədə” əmrinə əsasən, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi dayandırılmış və dərslər Zoom proqramı üzərindən onlayn formatda tədris edilmişdir.

“Koronavirus pandemiyasının Azərbaycan Respublikasının ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə UNEC-in Zaqatala filialında tədris və təlim-tərbiyə prosesinin dayandırılması ilə əlaqədar olaraq distant təhsilə keçilmişdir. Pandemiya şəraitində təlim və tədris prosesinin fasiləsiz və yüksək səviyyədə təşkilinə, professor-müəllim və tələbə həyatinin yeni təhsil şəraitinə adaptasiya olunmasına və dərslərdə mütəmadi iştirakının təmin edilməsinə daim nəzarət edilmişdir.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş təhsil islahatları hazırda Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Bu nöqteyi - nəzərdən son zamanlar Azərbaycan təhsil sistemində yeniləşmə, islahatların genişlənməsi, elmin naliyyətlərinin istehsalata tətbiqi sahəsində irəliləyişlər aydın görünür.

Respublikanın qabaqcıl elm və təhsil müəssisələrindən biri kimi UNEC də bu baxımdan fundamental elmi fəaliyyəti ilə öncül mövqedədir. Bunun məntiqi davamı kimi UNEC-in Zaqatala filialı regionda həm kadr hazırlığı, həm də bu bölgədə elmin inkişafına əhəmiyyətli töhfələr verir.

Bildiyimiz kimi, 2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana hücumu ölkəmizdə 44 günlük müharibənin başlanmasına səbəb oldu. Müharibə dövründə UNEC-in Zaqatala filialı ordumuza dəstək kampaniyalarında fəal iştirak etmiş, Ermənistan tərəfindən cəbhə xəttində və respublikanın mülki ərazilərində mütəmadi olaraq törədilən cinayətlərin, Azərbaycana qarşı həyata keçirilən işğalçı və təcavüzkar siyasətin sosial mediada yanlış şəkildə əks edilməsinin qarşısını almaq, ictimaiyyəti mövcüd şəraitlə bağlı düzgün məlumatlandırmaq məqsədilə filialın professor-müəllim heyəti və tələbə təşkilatları sosial şəbəkələrdə fəal iştirak etmişdir.

Filialın direktoru, fizika-riyaziyyat elmləri doktoru, professor Oruclı Rzayev qeyd etdi ki, 2021-ci il aprelin 29-da Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialının yaradılmasının 5 ili tamam olur. Ölkədə yüksək ixtisaslı iqtisadçı kadrların hazırlanmasında UNEC-in müstəsna xidmətləri var. Bu ali məktəb ölkəmizdə sənaye, ticarət, maliyyə, statistika, vergi sistemi, marketinq, menecment və s. ixtisaslar üzrə kadr hazırlığı və elmi-tədqiqat mərkəzinə çevrilib. Zaqatala filialı da UNEC-in tərkib hissəsi kimi, öz səylərini əsirgəmir. Azərbaycanın təhsil ənənələrini bu dağlar diyarına gətirən filial gələcəkdə daha çox ixtisas, professor-müəllim heyəti və tələbə kontingenti ilə fəaliyyət göstərməyi hədəfləyir.

***İlqar HƏSƏNOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***